ZAMAN
INTERNATIONAL NEWSPAPER
AZƏRBAYCAN
www.zaman.com.az
16-17 AVQUST 2005
Qiyməti 1000 manat

# Prezident xalq şairi Bəxtiyar Vahabzadəni 80 illik yubileyi münasibətilə təbrik edib

Prezidentin məktubunda şairin apardığı mübarizədən, zəngin yaradıcılıq yolundan söz açılıb və onun el ağsaqqalı kimi fəaliyyəti yüksək qiymətləndirilib.



Prezident İlham Əliyev xalq şairi Bəxtiyar Vahabzadəyə 80 illik yubileyi münasibətilə təbrik məktubu göndərib. Məktubda xalq şairinin Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda apardığı mübarizədən, zəngin yaradıcılıq yolundan söz açan ölkə başçısı onun ictimai xadim və el ağsaqqalı kimi fəaliyyətini də yüksək qiymətləndirib. B. Vahabzadəyə cansağlığı arzulayan prezident: "İnanıram ki, gənclik Sizin sənət zirvəsinə yüksələn və ictimai-ədəbi düşüncə tariximizi zənginləşdirən yaradıcılığınızdan tükənməz mənbə kimi faydalanacaq, yurd sevgisi ilə dolu poeziyanız Azərbaycanda bundan sonra da neçə-neçə nəslə mənəvi saflıq və vətənpərvərlik ruhu aşılayacaq," - deyib.